* Fazilə Qaraxanqızı

# Qəzəllər

Soruban əhvalımı könlümü xəndan elədin,
O gülən gözlərinlə bağrımı al qan elədin.

Bu lətafətlə inan tay ola bilməz sənə ay,
Necə öz hüsnün ilə, yar, məni heyran elədin.

Dilədim gül dodağından, elədin busə əta,
Sanasan bir gecənə sən məni mehman elədin.

Müşkə batdım mən o an məst elədin ətrinlə,
Təzə-tər qönçələri sünbülü-reyhan elədin.

Niyə bəs üz çevirib, zülm eləyib getdin axı,
Niyə ax, tərk eləyib, yar, məni peşman elədin?

Məni sərgərdan edib zülm elədin sındı könül,
Bu sınan könlümü, yar, gör necə zindan elədin!

Fələyin dürlü qəmin alnına yazmışmı xuda?
Taladın, Fazilənin könlünü viran elədin.

***

Səndən sənə, ey yar, yenə dürlü gileyim var,
Zülmündən usan, sal yadına bir mələyim var.

Keçmə dəxi məndən sənə bel bağlamışam mən,
Açdım əlimi ol xudaya bir diləyim var.

İncitdi məni ayrılığın tənha qalandan,
Hər dəm umaram vəslini, sən tək gərəyim var.

Tanrımsan, əl üzsəm qalaram tənha cahanda...
Tanrım kimi qüdrətli, müqəddəs köməyim var.

El tazə geyə, tazə nübarla edə bayram,
Ehsan edərəm hər kəsə xanəmdə nəyim var.

Sevdim səni, gəl Fazıləni salma nəzərdən,
Bəxş eyləmişəm bil ki, sənə, bir ürəyim var.

***

Məni sındırdı yaman, bəxtimə heç gülmədi yar,
Yenə də üz çevirib getdi, dönüb gəlmədi yar.

Dönübən sardı yenə, qucdu o qollar sanıram,
Qalayıb yaxdı məni odlara, heç bilmədi yar.

Talanır könlüm evi, rəhm eləmir ah, nə üçün?
Necə zalımmış aman, göz yaşımı silmədi yar.